**Pandemiya dövründə ölkə əhalisinin dövlət başçımızın və Birinci vitse-prezidentin çağırışlarına səs verməsini, mövcud qaydaları dəstəkləməsini, hər bir vətəndaşın ümumi problemin həllində iştirak etmək istəyini görəndə ümummilli lider Heydər Əliyevin məlum mart hadisələri zamanı xalqa ünvanladığı çağırışın soydaşlarımız tərəfindən necə qarşılandığı yada düşür. O zaman ölkə əhalisinin böyük əksəriyyəti haqqın, ədalətin yanında idisə, cüzi bir qisim qaragüruhu dəstəkləyirdi. İndi də vətəndaşlarımızın mütləq əksəriyyəti COVID-19-a qarşı mübarizədə dövlətin yanında olsa da, olduqca az bir zümrə hələ də laqeydlik, biganəlik və çox təəssüf ki, məsuliyyətsizlik nümayiş etdirir. Təbii ki, həmin o beş-altı yüz adam ümumi işə mane ola bilməsə də, xəstəliyə yoluxanların sayının artmasına "kömək edirlər".**

*Sevindirici hal ondan ibarətdir ki, bu 10 xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edəcək. Beləliklə, dövlətin üzərində yük bir qədər azalır. Özəl sektorun nümayəndələrinə və eyni zamanda, adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıbdır və ilkin olaraq Prezidentin ehtiyat fondundan bu fonda 20 milyon manat vəsait ayrılmışdır. Ancaq bu gün sahibkarlar və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 100 milyon manatı ötüb.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*





# Azərbaycan xalqı çətin dövrdə birlik və həmrəylik nümayiş etdirdi

Prezident İlham Əliyev də bu məsələyə dəfələrlə münasibət bildirib ki, bəzi kiçik məqamları nəzərə almasaq, bütövlükdə xalqımız ən çətin məqamlarda belə birlik və həmrəylik nümayiş etdirərək, min illərdən bəri davam edən mənəvi keyfiyyətlərini qoruya bilmişdir.

Məlum olduğu kimi, iyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə modul tipli üç xəstəxananın açılışı olub. Bunlar paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir. Açılış mərasimində çıxış edən Prezident xatırlatdı ki, modul tipli birinci xəstəxana bir ay bundan əvvəl, mayın 7-də açılmışdır və hazırda bu xəstəxanaların sayı dördə çatıb: "Mən mayın 7-də açılış mərasimində qeyd etdim ki, bu xəstəxanaların sayı 10-a çatmalıdır. Ümid edirəm ki, yaxın gələcəkdə – təxminən, ayın sonuna qədər qalan 6 xəstəxana da istifadəyə veriləcəkdir. Beləliklə, bizim əlavə iki min çarpayımız olacaqdır və bu, koronavirusla bağlı mübarizədə imkanlarımızı daha da genişləndirəcək".

Bu, çox dəyərli bir faktdır. Ancaq faktın alt qatında olan bir məqam da var ki, o, daha dəyərli və qürurvericidir. Belə ki, həmin 10 xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edir. Yəni, dövlətin üzərindəki yük bir qədər azalır. Dövlət başçımız bu məqamı belə ifadə edir: "Özəl sektorun nümayəndələrinə və eyni zamanda, adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıbdır və ilkin olaraq Prezidentin ehtiyat fondundan bu fonda 20 milyon manat vəsait ayrılmışdır. Ancaq bu gün sahibkarlar və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 100 milyon manatı ötüb. Bu, bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir".

Xatırladaq ki, bu, dövlət başçımızın ölkə əhəmiyyətli məsələlərdən söhbət gedərkən, özəl sektor təmsilçilərinə minnətdarlıq etməsi ilk fakt deyil. Dəfələrlə belə faktların şahidi olmuşuq. Prezident bu dəfə də səmimi fikirlərini dilə gətirdi: "Mən özəl sektorun bu işlərdə fəal rolunu dəstəkləyirəm. Eyni zamanda, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu və digər ictimai təşkilatlar, sahibkarlar bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım da göstərmişlər və bu proses davam edir. Amma hər kəs bilir ki, bu mübarizədə, əlbəttə ki, əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək".

Yəqin ki, diqqətli oxucularımız "vəziyyətdən az itkilərlə çıxa bilək" ifadəsinin fərqindədirlər. Çünki cənab Prezident son dörd-beş ayda həmin ifadəni dönə-dönə işlədir. Elə görülmüş bütün tədbirlərin mərkəzində də məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Amma, son 10 gün ərzində yoluxanların sayı artır. Bu artımın səbəbləri də aydındır. Yazının əvvəlində xüsusi olaraq vurğuladığımız məqamı yada salan dövlət başçımız deyir: "Bu da ondan irəli gəlir ki, yumşalma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstərmişlər. Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Bizim xəstəxanalarda kifayət qədər yerlərimiz var, reanimasiya şöbələrimizdə də, həmçinin. Eyni zamanda, əlavə iki min çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi nəzərdə tutulur. Bu günə qədər hələ ki, buna ehtiyac yoxdur. Ancaq biz bütün addımlarımızı elə atırıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin".

Yeri gəlmişkən, bəzi qaragüruhçular, xüsusən, özünü Milli Şura adlandırmış qrupun fəallarına aid olan sosial mediada yazırlar ki, niyə Azərbaycanda bütün xəstəxanalar koronavirusa yoluxmuş insanların istifadəsinə verilib? Halbuki, həmin başıpozuqlar əvvəlki aylarda yazırdılar ki, Avropa ölkələrinin əksəriyyətində bütün xəstəxanalar koronavirusa yoluxanların istifadəsinə verildiyi halda Azərbaycan həmin addımı atmır. Yəni Allah ağlını almış adamlar bu gün dediklərini sabah ya təkzib edir, ya da onun əksi olan "arqument" səsləndirirlər. Bəs həqiqətdə vəziyyət necədir?

Bu sualın cavabını da cənab Prezidentin yuxarıda qeyd etdiyimiz çıxışında görə bilirik: "Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alırlar. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir".

Xatırladaq ki, ölkəmizdə koronavirusla bağlı rastlaşa biləcəyimiz ən çətin vəziyyəti də qarşılaya bilmək üçün qabaqlayıcı tədbirlər görülüb. Hazırda laboratoriyaların sayı 20-dən çoxdur. Koronavirus xəstələrini müalicə etmək üçün ən qabaqcıl xəstəxanalar ayrılıb. Bundan başqa, ən yeni, deməli, həm də ən modern tibb müəsisəsi olan "Yeni klinika" da pandemiyaya qarşı mübarizə aparan səhiyyə müəssisələri arasındadır.

Dövlət başçımızın da qeyd etdiyi kimi, karantin şəraitində qalan vətəndaşlar üçün də Azərbaycanda xüsusi şərait yaradılıb. Belə ki, onlar 4-5 ulduzlu otellərdə, eyni zamanda, Atletlər Kəndində yerləşdirilir və karantin rejimində olan ən çox insan Atletlər Kəndində yerləşdirilibdir. Bizim yaratdığımız birlik və həmrəyliyin digər nümunələrindən biri də odur ki, minlərlə insan xaricdən təxliyə olunub və bu proses davam edir.

Sonda bir daha xatırladaq ki, Azərbaycan Prezidentinin koronavirusla mübarizəyə aid olan fikri dəyişməz olaraq qalır: "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur".

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

